**Əməkdaşlıq fəaliyyətləri**

- AQTA ilə Rumıniyanın Milli Sanitar Baytarlıq və Qida Təhlükəsizliyi Qurumu (ANSVSA) arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində birbaşa əlaqələr qurulmuş, əməkdaşlığın dərinləşdirilməsi üzrə mütəmadi görüşlər və texniki mübadilələr həyata keçirilir.
- **2026-cı il 23 aprel** tarixində Agentlik Kollegiyasının Qərarına əsasən Rumıniyanın qida obyektləri üzrə təsdiq sistemlərinin ekvivalentliyi tanınmışdır və bu barədə Rumıniya tərəfinə məlumat göndərilmişdir.
- **2025-ci il 31 oktyabr** tarixində qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması prosedurlarına başlanılması ilə bağlı Agentlik tərəfindən Rumıniyanın Milli Sanitar Baytarlıq və Qida Təhlükəsizliyi Qurumuna müvafiq məktub ünvanlanmış və ekvivalentlik üçün əsas kriteriyalarla bağlı sorğunun doldurularaq təqdim edilməsi xahiş edilmişdir.
- **2025-ci il 13 iyun** tarixində Agentliyin nümayəndələri ilə Rumıniyanın Azərbaycan Respublikasındakı Səfirliyinin nümayəndələri arasında ikitərəfli əməkdaşlıq imkanları, baytarlıq nəzarəti altında olan məhsulların idxal-ixracı (o cümlədən sertifikat mübadiləsi) məsələlərinin müzakirəsi məqsədilə görüş keçirilmişdir.
- **2024-cü il 1 aprel** tarixində ANSVSA-nın sədri–Dövlət katibi Aleksandru Nikolae Boçunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda (AQTİ) olub. Qonaqlara ölkəmizdə qida təhlükəsizliyi üzrə laboratoriya sisteminin inkişafı, maddi-texniki bazanın modernləşdirilməsi, beynəlxalq səriştəlilik sınaqlarında əldə edilən nəticələr, eləcə də qida, bitki və heyvan sağlamlığı üzrə ixtisaslaşmış laboratoriyaların fəaliyyəti barədə məlumat verilib.
- **2024-cü il 20 may** tarixində Müştərək Komissiyanın 8-ci iclası çərçivəsində "qida təhlükəsizliyi" və "baytarlıq" sahələrində imzalanmış anlaşma memorandumlarının müddəalarının icrası üzrə fəaliyyətləri koordinasiya etmək məqsədilə AQTA və ANSVSA nümayəndələrindən ibarət İşçi Qrup yaradılıb və onlayn formatda ilk iclasını keçirib. Görüşdə 01 yanvar 2023-dən qüvvədə olan "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müəssisələrin qeydiyyatı, xüsusi təhlükəli heyvan xəstəlikləri üzrə epizootoloji monitorinq prosedurları və mineral suların tənzimlənməsi sahələrində təcrübə mübadiləsi müzakirə edilib.
- **2023-cü il 30 yanvar** tarixində AQTA, ANSVSA və Rumıniyanın Azərbaycandakı səfirliyinin iştirakı ilə onlayn görüş keçirilib. AQTA-nın fəaliyyəti, ölkəmizdə qida təhlükəsizliyinin təmin olunması istiqamətində aparılan tədbirlər və "Qida təhlükəsizliyi haqqında" Qanunda nəzərdə tutulan yeniliklər Rumıniya tərəfinə təqdim edilib. Qida təhlükəsizliyi və baytarlıq sahələrində əməkdaşlıq üzrə Anlaşma Memorandumu layihələri müzakirə olunub.
- **2021-ci il 19 fevral** tarixində AQTA ilə ANSVSA nümayəndələri arasında onlayn görüş keçirilib. Müştərək Komissiyanın Protokolunun müddəaları çərçivəsində

əməkdaşlığın genişləndirilməsi, baytarlıq-sanitariya və qida təhlükəsizliyi tələbləri, heyvan və heyvan mənşəli məhsullar, qida məhsullarına verilən sertifikatlar və izlənmə sistemləri müzakirə edilib.

- Müvafiq sahələrdə əməkdaşlığın təşviqi, normativ bazanın təkmilləşdirilməsi məqsədilə 2024-cü ilin 1 aprel tarixində "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Rumıniyanın Milli Sanitar Baytarlıq və Qida Təhlükəsizliyi Qurumu arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Rumıniyanın Milli Sanitar Baytarlıq və Qida Təhlükəsizliyi Qurumu arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.
- İki ölkə arasında qida məhsullarının dövriyyəsi, ikitərəfli normativ bazanın uyğunlaşdırılması, müəssisələrin qeydiyyatı və tanınması, epizootik nəzarət təcrübələrinin paylaşılması, sərhəd nəzarəti və ixrac prosedurlarının əlaqələndirilməsi üzrə mütəmadi texniki görüşlər və səfərlər keçirilib.